FƏTƏLİ XAN XOYSKİNİN EPİSTOLYAR İRSİ VƏ TARİXİ NİTQLƏRİ AZƏRBAYCAN DÖVLƏTÇİLİK TARİXİNİN MƏNBƏYİ KİMİ

İntiqam Cəbrayılov,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri,
pedaqogika elmləri doktoru, professor,
Əməkdar müəllim

GİRİŞ

XX yüzilliyin əvvəllərində Şərqdə ilk demokratik respublika kimi tarix səhnəsinə çıxan Azərbaycan Xalq Cümhuriyyətinin formalaşması və beynəlxalq müstəvidə tanınması milli məfkurəyə sahib, fədakar ziyalıların adı ilə bağlıdır. Bu tarixi şəxsiyyətlər içərisində ilk Baş nazir və Xarici işlər naziri Fətəli xan Xoyskinin xidmətləri dövlətçilik tariximizin fundamental əsaslarını təşkil edir. Fətəli xan Xoyski təkcə hüquqi islahatları və inzibati fəaliyyəti ilə deyil, həm də xarici dövlətlərin diplomatik təzyiqləri qarşısında nümayiş etdirdiyi qətiyyətli milli mövqeyi ilə milli ruhlu tarixi şəxsiyyət rəmzinə çevrilmişdir. Onun irsi – rəsmi bəyanatları, parlament çıxışları və beynəlxalq yazışmaları (epistolyar irsi) – bu gün Azərbaycan dövlətçilik tarixinin ən etibarlı və ilkin mənbələrindən biri hesab olunur.

Müasir dövrdə qloballaşma meyillərinin güclənməsi fonunda gənc nəsildə milli mənlik şüurunun, Azərbaycan dövlətçiliyinə sadiqlik və məhəbbət hissinin aşılanması mühüm strateji vəzifəyə çevrilmişdir. Bu baxımdan, Fətəli xan Xoyski kimi xarizmatik və prinsipial dövlət xadimlərinin irsinin tədqiq edilərək təhsil sisteminə inteqrasiya olunması, şagirdlərdə dövlətçilik şüurunun formalaşdırılması baxımından böyük pedaqoji potensiala malikdir. Xüsusilə, Cümhuriyyətin süqutu ərəfəsində Sovet Rusiyasının xarici işlər komissarı Georgi Çiçerinlə aparılan gərgin diplomatik yazışmalar və Xoyskinin Azərbaycanın müstəqilliyini son damla qanına qədər qorumaq əzmi, gənclərə vətənpərvərlik dərsi keçmək üçün unikal tarixi materialdır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan dövlətçilik tarixində xüsusi yeri olan tarixi şəxsiyyətlərdən biri Fətəli xan Xoyskinin keçdiyi həyat

yolundan bəhs edərkən demişdir: *"Fətəli xan Xoyskinin xalqımızın həyatında, ilk Azərbaycan Demokratik Respublikasının yaradılmasında böyük xidmətlərini biz bu gün minnətdarlıq hissi ilə qeyd edirik.... Azərbaycanın ilk demokratik respublikası cəmi 23 ay yaşaya bilmişdi. O, sonra devrilmiş, amma buna baxmayaraq, Azərbaycanda dövlətçiliyin, müstəqilliyin, demokratiyanın ilk carçısı olmuş, ilk addımlar atmışdır. 1991-ci ildə Azərbaycan xalqı öz milli azadlığına nail olandan və dövlət müstəqilliyini əldə edəndən sonra, şübhəsiz ki, bu şəxsiyyətlər və onların arasında Fətəli xan Xoyski öz tarixi xidmətlərinə görə bizim üçün daha da əziz, daha da yaxın olmuşlar"* [1].

Fətəli xan Xoyskinin tarixi xidmətləri unudulmur və unudulmayacaq. Bu gün də bu böyük şəxsiyyətin tarixi irsini öyrənir və dəyərləndiririk. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncam mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısı F.Xoyskinin milli azadlıq, müstəqillik uğrunda mübarizəsini yüksək qiymətləndirir: *"Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur"* [6].

Fətəli xan Xoyskinin irsi: həyatı, siyasi, dövlətçilik fəaliyyətinə baxış

Hər şeydən əvvəl, qeyd edək ki, Fətəli xan Xoyski (25.11.1875–19.06.1920) Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) ilk Baş naziri, daxili işlər, ədliyyə və xarici işlər naziri kimi fəaliyyət göstərmiş görkəmli dövlət xadimidir. Onun həm Çar Rusiyasının II Dövlət Dumasında (1907), həm də AXC dövründə (1918–1920) etdiyi nitqlər Azərbaycanın müstəqilliyi, milli dövlətçilik ideologiyası və hüquqi əsaslarının formalaşmasında müstəsna rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Fətəli xan Xoyskinin siyasi fəaliyyətinin mayasını dərin milli ruh, xalqa xidmət və sarsılmaz istiqlal məfkurəsi təşkil edirdi. Şəki və Xoy

xanları nəslindən gələn bu böyük dövlət xadimi, öz aristokratik köklərini xalqın demokratik idealları ilə birləşdirməyi bacarmışdı. O, AXC-nin 1-ci, 2-ci və 3-cü Hökumət kabinələrində Baş nazir olmuşdur. Tribunalardan etdiyi çıxışlar və bəyanatlar, onun milli ruhlu bir lider olaraq dövlətçilik tariximizdəki xüsusi yerini şərtləndirir.

F.Xoski ixtisasca hüquqşünas idi. O, Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Hələ gənc yaşlarında ikən 1897-1907-ci illərdə əvvəl Yelizavetpol dairə məhkəməsi yanında məhkəmə vəzifələri üçün kiçik namizəd təyin olunmuş, sonra Kutaisi, Zuqdidi və Suxumidə bir neçə il məhkəmə-hüquq sahəsində vəzifələr tutmuşdur. 1917-ci ilin oktyabrından 1918-ci ilin aprelinədək Bakı şəhər Dumasına rəhbərlik etmişdir.

Cənubi Qafqaz Komissarlığı nəzdində Xalq maarif komissarı (1917–1918), Cənubi Qafqaz Demokratik Federativ Respublikasının Ədliyyə naziri (1918). Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra ilk Nazirlər Şurasının sədri (1918–1919) və Daxili işlər naziri (1918) təyin edilmişdir, bundan başqa AXC-nin Ədliyyə naziri (1918) və Xarici işlər naziri (1918–1919 və 1919–1920) vəzifələrində çalışmışdır.

1918-ci il mayın 26-da Cənubi Qafqaz Seyminin sonuncu iclasında Seymin buraxılması və Gürcüstanın müstəqilliyinin elan edilməsi barədə qərar qəbul edildi. Bununla əlaqədar olaraq mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclası keçirilmiş və M.Rəsulzadənin sədrliyi ilə Müvəqqəti Milli Şura və F.Xoyskinin sədrliyi ilə Milli Şuranın İcra Komitəsi yaradılmışdır.

Müvəqqəti Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən iclasında Azərbaycanın müstəqilliyini bəyan edən akt qəbul olunmuşdur. Bu İstiqlal Bəyannaməsini imzalayan 24 nəfərdən biri F.Xoyski olmuşdur. Həmin iclasda Milli Şura F.Xoyskiyə Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təşkil etməyi tapşırmış və F.Xoyski bir saatlıq fasilədən sonra Milli Şuranın iclasına hökumətin tərkibini təqdim etmişdir. F.Xoyski burada Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının ilk Baş naziri və Daxili İşlər naziri vəzifələrinə təyin edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin ilk dövründə- son dərəcə mürəkkəb, ağır şəraitdə Fətəli xan Xoyskinin dövlətçiliyin qorunması uğrunda mübarizəsini Üzeyir Hacıbəyli haqlı olaraq böyük ustalıq və məharət nümunəsi adlandırmış, onu istedadlı dövlət xadimi kimi səciyyələndirmişdir. Ü.Hacıbəyli yazırdı: "*Yeni vücuda gəlmiş Azərbaycan hökumətinin birinci rəisi-vüzarası olmaqla Azərbaycan tarixində mühüm mövqe tutmuş Fətəli xan həzrətləri bu yeni dövlətin vəziyyətini taxta paralarından əmələ gəlmiş bir gəmiyə bənzədir ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat , hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşısında qalmış, bütün ümidini gəmiçinin istedad və məharətinə bağlamşdır… Bu zəif gəmini bu fırtınalı gündə bu dağın , bu daşın arasından salamat keçirmək və sahili-nicata çıxarmaq kimi çətinliyi Fətəli xan həzrətləri öz boynuna götürməyi qəbul etdi və gəmisini kəmali-ehtiyat və ehtimal ilə sahili-nicata şıxarmaqda, fırtına sakit olana qədər dağa və daşa vurmayıb bunların arasından keçirməkdə böyük ustalıq və məharət göstərdi"* [4, s.26].

1918-ci il iyunun 17-də Azərbaycan Milli Şurasının göstərişinə əsasən, Fətəli xan Xoyskinin başçılığı ilə ikinci hökumət kabinəsi təşkil olunmuş və F.Xoyski ikinci hökumətdə yenə də Baş nazir və eyni zamanda Ədliyyə naziri vəzifələrini tutmuşdur.1918-ci il dekabrın 26-da təşkil etdiyi III hökumət kabinəsində isə F.Xoyski Baş nazir və Xarici İşlər naziri vəzifələrini tutmuşdur.

1919-cu ilin mart ayında Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumət istefaya çıxmış, Nazirlər Şurasının sədri vəzifəsi N. Yusifbəyliyə tapşırılmışdır. Hökumət başçısı postundan uzaqlaşdığı və Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi 4-cü hökumət kabinetinin formalaşdığı dövrdə (1919-cu ilin aprel–dekabr ayları arasında) Fətəli xan Xoyski məhz parlament üzvü kimi aktiv siyasi fəaliyyətini davam etdirmişdir. O, bu statusda Cənubi Qafqaz respublikaları (xüsusilə Ermənistan) ilə ərazi və sərhəd münaqişələrinin nizamlanması üzrə keçirilən konfranslarda Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmiş və diplomatik danışıqlar aparmışdır

Fətəli xan Xoyski Nazirlər Şurasının sədri N. Yusifbəylinin təşkil etdiyi beşinci hökumət kabinəsində Xarici işlər naziri olmuşdur.

Fətəli xan Xoyski erməni "Daşnaksütyun" partiyasının üzvləri Aram Erkanyan və Misak Qriqoryan tərəfindən 1920-ci ilin 19 iyununda Gürcüstanın Tiflis şəhərində qətlə yetirilmiş və Tiflisdə, indiki botanika bağının ərazisində yerləşən köhnə müsəlman qəbristanlığında dəfn edilmişdir.

Fətəli xan Xoyskinin milli mənlik şüurunun və dövlətçilik fəlsəfəsinin ən bariz nümunəsi, onun 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsinin qəbul edilməsi və elan olunması prosesindəki tarixi roludur. Milli Şuranın həmin tarixi iclasında Azərbaycanın müstəqilliyini elan edən bəyanatın mətni məhz onun rəhbərliyi ilə idarə heyəti tərəfindən oxunmuş və təsdiq edilmişdir. F.Xoyski bu hadisəni sadəcə bir siyasi akt deyil, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinin bərpası və milli azadlıq hərəkatının məntiqi zirvəsi kimi dəyərləndirirdi.

Onun parlament kürsüsündən söylədiyi nitqlər milli dövlətçilik ideologiyasının formalaşmasında fundamental əhəmiyyət kəsb edir. 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin təntənəli açılışında Fətəli xan Xoyski hökumətin fəaliyyəti barədə hesabat verərkən xalqın müstəqillik əzmini yüksək qiymətləndirmiş, xalqı Azərbaycanın istiqlalını qorumağa çağırmışdır. O, milli hökumətin millətin hüquqlarını bərqərar etməyə xidmət etdiyini bəyan edirdi.

Fətəli xan Xoyskinin çıxışlarında milli ruhun digər bir təzahürü, onun Azərbaycanın daxili siyasi qüvvələrini vahid dövlətçilik ideyası ətrafında birləşməyə çağırması idi. O, parlamentdəki fraksiyaların mübarizəsini təbii qəbul etsə də, dövlət maraqları müzakirə mövzusu olduqda partiya maraqlarının kənara qoyulmasını tələb edirdi. Onun nitqlərində sıx-sıx rast gəlinən "milli barışıq" və "milli həmrəylik" çağırışları, Cümhuriyyətin çətin geosiyasi şəraitdə sağ qalması üçün əsas şərt idi.

F.Xoyskinin milli ruhunu və siyasi uzaqgörənliyini göstərən ən mühüm tarixi faktlardan biri də, 1920-ci ilin yanvarında Paris Sülh Konfransında Azərbaycanın müstəqilliyinin de-fakto tanınması xəbərini aldıqdan sonra keçirdiyi hisslər və verdiyi bəyanatdır. O, bu tarixi qələbəni sadəcə rəsmi bir uğur deyil, "Azərbaycan xalqının və ümumtürk dünyasının ən böyük bayramı" adlandırmışdı. 14 yanvar 1920-ci ildə Parlamentin bu məsələyə həsr olunmuş iclasındakı çıxışında F.Xoyski

demişdir: *"Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri millətlər on illər ilə çalışmışlar. Biz isə onu az müddətdə, bir il yarım içərisində qazandıq. Böylə az müddətdə istiqlaliyyətini alan bir millətin onu möhkəm saxlayacağına əminəm.*

...Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm...." [4, s.28]. Bu yanaşma onun regional və beynəlxalq müstəvidə nə dərəcədə geniş miqyaslı milli təfəkkürə malik olduğunu sübut edir.

Mənbəşünaslıq baxımından Fətəli xan Xoyskinin parlament çıxışlarının mətni təhlil edilərkən görünür ki, o, hər bir cümləsində Azərbaycanın suverenliyini, millətin öz müqəddəratını təyin etmək hüququnu qətiyyətlə müdafiə edir. O, çıxışlarında heç bir xarici qüvvəyə, istər çar generalı Denikinə, istərsə də bolşevik Rusiyasına güzəştə gedilməyəcəyini vurğulayırdı. Onun bu güzəştsiz milli mövqeyi, onu sadəcə dövrün böhran meneceri deyil, gələcək nəsillərə örnək olacaq milli məfkurə lideri statusuna yüksəltmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət tarixinin və Fətəli xan Xoyskinin diplomatik dühasının ən gərgin, eyni zamanda ən şərəfli səhifələrindən birini 1920-ci ilin yanvar–aprel aylarında Sovet Rusiyasının Xarici işlər xalq komissarı Georgi Çiçerinlə aparılan epistolyar mübarizə təşkil edir. Bu rəsmi teleqramlar və notalar çoxluğu sadəcə iki dövlət rəsmisinin yazışması deyil, müstəqil, demokratik bir respublika ilə imperialist iddialarını sovet pərdəsi altında gizlədən bir imperiya arasındakı hüquqi və siyasi duel idi.

Georgi Çiçerin 1920-ci il yanvarın 2-də Azərbaycan hökumətinə ünvanladığı ilk notasında sovet Rusiyasına qarşı vuruşan çar generalı Denikinə qarşı hərbi ittifaq qurmağı təklif edirdi. Zahirən Denikin təhlükəsinə qarşı yönəlmiş bu təklifin pərdəarxası məqsədi Azərbaycanı Rusiya daxilindəki vətəndaş müharibəsinə sürükləmək, ölkənin neft resurslarına nəzarəti ələ keçirmək və Cümhuriyyətin müstəqilliyini faktiki olaraq ləğv etmək idi.

Fətəli xan Xoyski peşəkar hüquqşünas səriştəsi və diplomat uzaqgörənliyi ilə bu təhlükəni dərhal sezdi. O, yanvarın 14-də Çiçerinə göndərdiyi cavab məktubunda

sovet Rusiyasının tələbini beynəlxalq hüquq normaları prinsiplərinə əsaslanaraq qətiyyətlə rədd etdi. Xoyski qeyd edirdi ki, Denikinlə müharibə Rusiyanın daxili işidir və Azərbaycan başqa bir dövlətin daxili münaqişələrinə qarışmamaq barədə bitərəflik siyasəti yürüdür. O, həmçinin vurğulayırdı ki, Rusiya ilə hər hansı bir ittifaqdan və ya müqavilədən əvvəl, sovet hökuməti Azərbaycan xalqının öz müqəddəratını təyin etmək hüququnu tanımalı və Azərbaycanın tam müstəqilliyinə rəsmən hörmətlə yanaşmalıdır.

Çiçerinin təhdid dolu ikinci notasından sonra Fətəli xan Xoyski fevralın 21-də ona daha kəsərli və hüquqi baxımdan qüsursuz bir cavab teleqramı göndərdi. Bu sənəddə Xoyski yazırdı ki, Azərbaycan hökuməti qonşu rus xalqının daxili işlərinə qarışmağı özünə rəva bilmədiyi kimi, rus xalqının hər hansı bir hissəsinin də Azərbaycanın daxili işlərinə qarışmasını tamamilə yolverilməz hesab edir [7, s.52-56]. Bu fikirlər Xoyskinin milli müstəqillik prinsipinə olan sarsılmaz inamının rəsmi təsdiqi idi. O, böyük bir imperiyanın hərbi təzyiqləri qarşısında geri çəkilmir, əksinə, Rusiyanı beynəlxalq hüquqa tabe olmağa çağırırdı. Bu yazışmalar mənbəşünaslıq baxımından təhlil edilərkən bəlli olur ki, Xoyski sovet Rusiyasının Azərbaycanı beynəlxalq aləmdən təcrid etmək və onun Paris Sülh Konfransındakı uğurlarını kölgədə qoymaq cəhdlərini boşa çıxarmışdır.

Aprel ayında sovet ordusunun sərhəddə toplaşdığı və daxildə bolşevik təxribatlarının artdığı ən böhranlı günlərdə belə Fətəli xan Xoyski milli ruhlu dövlət adamı mövqeyindən bir addım da geri atmadı.

Xoyski-Çiçerin məktublaşması Azərbaycanın dövlətçilik tarixində suverenliyin, sərhəd toxunulmazlığının və milli mənliyin qorunmasının rəsmi bəyanatı və manifestidir. Bu sənədlər hər bir Azərbaycan vətəndaşı üçün dövlət maraqlarının nə dərəcədə ali olduğunu nümayiş etdirən qiymətli tarixi qaynaqdır.

Gənc nəslin tərbiyəsində F. Xoyskinin irsindən istifadə məsələləri

Müasir təhsil sisteminin qarşısında duran ən mühüm strateji vəzifələrdən biri müstəqil düşüncəli, milli dəyərlərə sadiq və güclü dövlətçilik şüuruna malik gənc nəslin tərbiyə edilməsidir. Bu kontekstdə, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Fətəli xan Xoyskinin siyasi fəaliyyəti, tarixi nitqləri və diplomatik

irsi ümumtəhsil məktəblərində subyekt-obyekt münasibətlərini canlandıran unikal pedaqoji mənbə materialı rolunu oynayır. Şagirdlərdə dövlətçilik şüurunun formalaşdırılması sadəcə quru tarixi faktların əzbərlədilməsi ilə deyil, tarixin aparıcı şəxsiyyətlərinin milli ruhu və emosional qətiyyəti ilə təmas qurmaq sayəsində mümkündür.

Fətəli xan Xoyski irsinin tədris prosesinə inteqrasiyası zamanı interaktiv təlim metodlarından və real Keys-Stadi (Case study - hadisə analizi) üsulundan istifadə edilməsi yüksək pedaqoji effekt verir. Xüsusilə, "Azərbaycan tarixi" dərslərində Xoyski və Çiçerin arasındakı gərgin məktublaşmanın sənədləri şagirdlərə ilkin mənbə kimi təqdim oluna bilər. Bu sənədlər üzərində qurulan dərslər şagirdlərdə tənqidi təfəkkür və hüquqi savadlılıq, milli qürur və vətənpərvərlik, eləcə də siyasi şəxsiyyət modelinin mənimsənilməsi kimi mühüm keyfiyyətləri formalaşdırır. Bu baxımdan aşağıdakı istiqamətlərdə ümumiləşdirmələr aparmaq olar:

1.Şagirdlər Xoyskinin sovet Rusiyasının təhdidlərinə beynəlxalq hüquq müstəvisində verdiyi cavabları analiz edərək, dövlət sərhədlərinin toxunulmazlığı və suverenlik prinsiplərini dərindən dərk etməklə tənqidi təfəkkür və hüquqi savadlılıq keyfiyyətlərini mənimsəyirlər.

2. F. Xoyskinin *"Biz bu istiqlaliyyəti kiməsə verəsi deyilik!"* bəyanatı təhlil edilərkən, şagirdlərdə müstəqilliyin nə dərəcədə böyük qurbanlar bahasına qazanıldığına dair emosional bağ və dövlət rəmzlərinə (bayraq, gerb, himn) qarşı dərin ehtiram hissi oyanır, onlarda milli qürur və vətənpərvərlik hisslərinin formalaşmasına zəmin yaranır.

3. Aristokratik köklərə sahib olan F. Xoyskinin özünü millətin və dövlətin xidmətçisi kimi rəsmən elan etməsi faktı gənclərə şəxsi ambisiyaları dövlət maraqlarından geridə tutmağı öyrədən əxlaqi bir örnək kimi qəbul edilir, beləliklə, şagirdlər siyasi şəxsiyyət modelini mənimsəyirlər.

Metodik baxımdan, yuxarı sinif şagirdləri ilə "Parlament debatları" və ya "Xoyski diplomatiyası" mövzusunda simulyasiya oyunlarının keçirilməsi məqsədə-uyğundur. Şagirdlər rollara bölünərək 1920-ci ilin gərgin geosiyasi şəraitində Azərbaycanın müstəqilliyini diplomatik notalar vasitəsilə müdafiə edən tərəf

qismində çıxış edirlər. Bu proses gənclərdə dövlətin xarici siyasət prioritetlərini anlamağa, milli maraqları hər bir platformada qətiyyətlə qorumaq instinktinin və vətəndaşlıq mövqeyinin inkişafına birbaşa təkan verir.

Fətəli xan Xoyskinin milli ruhlu portretinin məktəblilərə daxili və xarici sənədlər süzgəcindən keçirilərək aşılanması, onlarda mücərrəd bir vətən anlayışını real və qorunmalı olan "Azərbaycan dövlətçiliyi" müqəddəsliyinə çevirir. Bu irs gənc nəslin tarixi yaddaşını möhkəmləndirən mənəvi bir qala rolunu oynaması baxımından əhəmiyyət kəsb edir.

NƏTİCƏ

Fətəli xan Xoyskinin dövlətçilik irsinin və epistolyar sənədlərinin tədqiqi, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin qaranlıq və gərgin məqamlarına işıq tutmaqla yanaşı, həm də müasir dövr üçün mühüm elmi-pedaqoji əhəmiyyət kəsb edir. Apardığımız tədqiqat və sənədli təhlillər əsasında aşağıdakı ümumiləşdirilmiş nəticələrə gəlmək olar:

1. Fətəli xan Xoyskinin həm parlament kürsüsündən etdiyi çıxışlar, həm də imzaladığı rəsmi bəyanatlar onun dərin milli ruha sahib, qətiyyətli bir lider olduğunu sübut edir. O, dövlətin istiqlaliyyətini hər bir siyasi və partiya maraqlarından uca tutaraq milli həmrəylik modelini formalaşdırmışdır.

2. 1920-ci ilin əvvəllərində sovet Rusiyasının xalq komissarı G. Çiçerinlə aparılan epistolyar mübarizə, F. Xoyskinin yüksək hüquqi savadını və xarizmatik diplomatik dühasını nümayiş etdirir. O, təhdidlərə beynəlxalq hüquq normaları ilə cavab verərək Azərbaycanın suveren statusunu son ana qədər cəsarətlə müdafiə etmiş və müstəqilliyin toxunulmazlığı prinsipini tarixin yaddaşına həkk etmişdir.

3. F. Xoyski irsi ümumtəhsil məktəblərində şagirdlərin milli mənlik şüurunun inkişafı və Azərbaycan dövlətçiliyinə məhəbbət hissinin aşılanması üçün tükənməz bir mənbədir. Onun sənədlərinin (notalar, teleqramlar, nitqlər) dərsliklərdə ilkin mənbə kimi istifadəsi və interaktiv metodlarla (məsələn, keys-stadi, simulyasiya oyunları) tədrisi gənc nəsildə tənqidi təfəkkürü və vətəndaşlıq məsuliyyətini artırır.

Bütövlükdə araşdırmalarımızın ümumi nəticəsi göstərir ki, Fətəli xan Xoyski kimi milli ruhlu tarixi şəxsiyyətlərin yazılı irsi sadəcə keçmişin arxiv sənədi deyil,

həm də gələcək nəsillərin dövlətçilik şüurunu formalaşdıran mənəvi-siyasi mayakdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYASI

1. Azərbaycan Prezidenti Heydər Əliyevin Tbilisi Nəbatat bağında Fətəli Xan Xoyskinin aidəsinin açılışı mərasimində nitqi. 9 mart 1996-cı il. https://lib.aliyevheritage.org/az/4734366.html

2. Azərbaycan Xalq Cümhuriyyəti:1918–1920. Parlament (Stenoqrafik hesabatlar). 1-ci cild. Bakı: Azərbaycan nəşriyyatı, 1998. 976 s. https://www.preslib.az/az/elibrary/ebook/uSjb49G5

3. Azərbaycan Xalq Cümhuriyyəti:1918–1920. Parlament: stenoqrafik hesabatlar. - 2-ci cild. Bakı: Azərbaycan nəşriyyatı, 1998, 992 s. https://www.preslib.az/az/book/9ACmaW5pBbQUZQr

4. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. II cild. Bakı: Lider, 2005, 472 s.

5. Bünyadov Z.M., Əliyev M. Fətəlixan Xoyski. Bakı: Şərq-Qərb, 1997, 44 s.

6. Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.17 sentyabr 2025-ci il. https://president.az/az/articles/view/70126

7. Fətəli Xan Xoyski: həyat və fəaliyyəti: sənəd və materiallar. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsi. Bakı: Azərbaycan nəşriyyatı,1998, 152 s.

8. Quliyev V.M. Cümhuriyyət yazıları. Bakı: Çapar, 2021, 580 s.

9. Yaqublu N.Q. Cümhuriyyət qurucuları. Bakı: Nurlar, 2018,504 s.

Xülasə

FƏTƏLİ XAN XOYSKİNİN EPİSTOLYAR İRSİ VƏ TARİXİ NİTQLƏRİ AZƏRBAYCAN DÖVLƏTÇİLİK TARİXİNİN MƏNBƏYİ KİMİ

Xülasə: Məqalə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Fətəli xan Xoyskinin 150 illik yubileyinə həsr edilmişdir. Tədqiqatda F. Xoyskinin parlament çıxışları, bəyanatları və xüsusilə 1920-ci ilin əvvəllərində sovet Rusiyasının xarici işlər komissarı G. Çiçerinlə apardığı tarixi, gərgin diplomatik yazışmalar (epistolyar irsi) ilkin mənbə kimi təhlil olunur. Onun beynəlxalq hüquq normalarına əsaslanaraq Azərbaycanın müstəqilliyini qətiyyətlə müdafiə etməsi və milli ruhlu dövlət adamı portreti sənədlərlə işıqlandırılır. Eyni zamanda, məqalədə Xoyski irsinin ümumtəhsil məktəblərində şagirdlərin dövlətçilik şüurunun, vətəndaşlıq mövqeyinin və Azərbaycan dövlətçiliyinə məhəbbət hissinin formalaşdırılmasındakı pedaqoji potensialı və metodik tətbiqi yolları əsaslandırılır.

Açar sözlər: Fətəli xan Xoyski, AXC, Georgi Çiçerin, epistolyar irs, müstəqillik, dövlətçilik şüuru, vətənpərvərlik tərbiyəsi.

Abstract

THE EPISTOLARY HERITAGE AND HISTORICAL SPEECHES OF FATALI KHAN KHOYSKI AS A SOURCE OF THE HISTORY OF AZERBAIJANI STATEHOOD

Abstract: The article is dedicated to the 150th anniversary of Fatali Khan Khoyski, one of the founders of the Azerbaijan Democratic Republic (ADR). The research analyzes F.K. Khoyski's parliamentary speeches, official statements, and particularly his historical, intense diplomatic correspondence (epistolary heritage) with G. Chicherin, the People's Commissar for Foreign Affairs of Soviet Russia in early 1920, as primary sources. His resolute defense of Azerbaijan's independence based on international law norms and his portrait as a nationally-minded statesman are highlighted through documents. Concurrently, the article substantiates the pedagogical potential and methodical application of Khoyski's heritage in forming statehood consciousness, civic stance, and love for Azerbaijani statehood among school students.

Keywords: Fatali Khan Khoyski, ADR, Georgi Chicherin, epistolary heritage, independence, statehood consciousness, patriotic education.

Аннотация

ЭПИСТОЛЯРНОЕ НАСЛЕДИЕ И ИСТОРИЧЕСКИЕ РЕЧИ ФАТАЛИ ХАНА ХОЙСКОГО КАК ИСТОЧНИК ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОСТИ

Аннотация: Статья посвящена 150-летию со дня рождения Фатали хана Хойского, одного из основателей Азербайджанской Демократической Республики (АДР). В исследовании в качестве первоисточников анализируются парламентские речи, официальные заявления Ф.Х. Хойского и, в особенности, его историческая, напряженная дипломатическая переписка (эпистолярное наследие) с народным комиссаром иностранных дел Советской России Г. Чичериным в начале 1920 года. На основе документов освещается его решительная защита независимости Азербайджана с опорой на нормы международного права и его портрет как государственного деятеля с глубоким национальным духом. В то же время обосновывается педагогический потенциал и методические пути применения наследия Хойского в формировании государственного сознания, гражданской позиции и любви к азербайджанской государственности у учащихся общеобразовательных школ.

Ключевые слова: Фатали хан Хойский, АДР, Георгий Чичерин, эпистолярное наследие, независимость, государственное сознание, патриотическое воспитание.